# Daxili auditor vəzifəsi üzrə test tapşırıqları

1. Sənaye müəssisələrində işçilərin sayı hansı hədd daxilində olduqda orada əməyin mühafizəsi üzrə mühəndis vəzifələri tətbiq edilir? Tam doğru cavabı seçin.

A) 10 nəfərdən çox olduqda

B) 50 nəfərdən çox olduqda

C) 20 nəfərdən çox olduqda

D) 40 nəfərdən çox olduqda

E) 30 nəfərdən çox olduqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

2. Sənaye obyektlərində hansı halda baş mühəndisin əməyin mühafizəsi üzrə müavini vəzifəsi təsis edilir?

A) İşçilərin sayı 500 nəfərdən çox olduqda

B) İşçilərin sayı 100 nəfərdən çox olduqda

C) İşçilərin sayı 150 nəfərdən çox olduqda

D) İşçilərin sayı 250 nəfərdən çox olduqda

E) İşçilərin sayı 300 nəfərdən çox olduqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

3. İş yerində əmək şəraitinin vəziyyətini hər gün kim yoxlayır?

A) Baş mühəndis

B) Baş mühəndisin müavini

C) İş yerinə təhkim edilmiş usta

D) Texniki şöbənin rəisi

E) Baş texnoloq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

4. Müəssisədə daimi fəaliyyət göstərən komissiya əməyin təhlükəsizliyi üzrə yoxlamanı hər yarım ildə bir dəfədən az olmayaraq keçirir. Bu nəzarətin hansı mərhələsi hesab edilir?

A) Nəzarətin üçüncü mərhələsi

B) Nəzarətin ikinci mərhələsi

C) Nəzarətin beşinci mərhələsi

D) Nəzarətin dördüncü mərhələsi

E) Nəzarətin birinci mərhələsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

5. Obyektlərdə əmək şəraitinin vəziyyətinin yoxlanılmasının nəticələrini əks etdirən hansı rəsmi sənəd tərtib edilir?

A) Müqavilə

B) İzahat

C) Yazışma

D) Əmr

E) Akt

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

6. Əmək təhlükəsizliyi üzrə daimi fəaliyyət göstərən komissiyaların illik planlarını kim təsdiq edir?

A)  Komissiya sədrləri

B)  Əməyin təhlükəsizliyi üzrə mühəndis

C)  Baş mühəndis

D)  Baş mühəndisin müavini

E)  Müəssisə rəhbəri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

7. Müəssisədə sexlər arasında qarşılıqlı yoxlama cədvəlini hansı vəzifəli şəxs təsdiq edir?

A)  İstehsalat rəisi

B)  Baş mühəndis

C)  Baş texnoloq

D)  Sex rəisləri

E)  Komissiya sədrləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

8. Müəssisədə əməyin təhlükəsizliyi xidmətinin işçiləri əmək şəraitinin vəziyyətinin yoxlanılması jurnalını hansı müddət ərzində yoxlamalıdır?

A)  İldə bir dəfədən az olmayaraq

B)  Rübdə bir dəfədən az olmayaraq

C)  Ayda bir dəfədən az olmayaraq

D)  İldə beş dəfədən az olmayaraq

E)  Həftədə iki dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

9. Sənaye obyektlərində əməyin mühafizəsi üzrə keçirilən iclasların nəticələri hansı sənəd əsasında rəsmiləşdirilir?

A) Əmr

B) Bildiriş

C) Akt

D) Protokol

E) İzahat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

10. Baş mühəndis hansı müddətdən bir mühəndis-texniki işçilərin müşavirələrində (əmək şəraitinin vəziyyəti ilə bağlı) iştirak edir?

A) Ayda bir dəfədən az olmayaraq

B) İldə iki dəfədən az olmayaraq

C) Rübdə dörd dəfədən az olmayaraq

D) Altı ayda iki dəfə olmaqla

E) Rübdə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

11. Aşağıdakılardan hansı əmək şəraitinin yaxşılaşdırılması və sağlamlaşdırılması üzrə tədbirlərə aid deyil?

A) İctimai-siyasi

B) Təşkilati

C) Texniki

D) Sanitar-gigiyenik

E) Sosial-iqtisadi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

12. Hansı planlar müasir texniki vasitələrin, qabaqcıl texnologiyanın, elmin, texnikanın yeni nailiyyətlərinin istehsalata tətbiq edilməsini özündə əks etdirir? Tam doğru cavabı seçin.

A) İllik planlar

B) Rüblük planlar

C) Beş illik planlar

D) Aylıq planlar

E) İllik və rüblük planlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. Bakı, 2010, s.101

13. Audit sözünün mənası nədir?

A) Eşidirəm deməkdir

B) Yoxlama deməkdir

C) Testləşdirmə deməkdir

D) Sənədləşmə deməkdir

E) Standartlaşdırma deməkdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

14. Auditin idarəetmə funksiyasının xarakterik xüsusiyyəti nədən ibarətdir?

A)  Yoxlamanın bir tərəfli aparılması

B)  İdarəetmənin bütün prosesində iştirak etmək

C)  İdarəçilikdə dövrülük prinsipinin olması

D)  Müşahidələr əsasında qərar qəbul etmək

E)  Yalnız bir mənbədən istifadə etmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

15. Təşkilati baxımdan auditin hansı növləri vardır?

A)  Ancaq daxili audit olur

B)  Ancaq xarici audit olur

C)  Daxili və xarici audit

D)  Daxili və ümumi audit

E)  Daxili və fiksal audit

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

16. Aşağıdakılardan hansı auditin metodlar sisteminə aid deyil?

A)  Faktiki yoxlama

B)  Seçmə üsulu

C)  Analitik testlər

D)  Termiki üsullar

E)  Riyazi statistik üsullar

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

17. Hər hansı bir təsərrüfat əməliyyatının yerində yoxlanılması, hesablanması və onun mühasibat sənədləri ilə üzləşdirilməsi hansı növ yoxlama üsuluna aiddir? Tam doğru cavabı seçin.

A) Riyazi

B) Statistik

C) Seçmə

D) Sənədli

E) Faktiki

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

18. Təsərrüfat-maliyyə əməliyyatlarının bir qrupunun müəyyən tarixi dövrə görə seçilib tərtib olunması, rəqəmlərin düzgünlüyünün, yekunların reallığının yoxlanılması, hesablaşmaların aparılmasında bir neçə ayın seçilib yoxlanılması hansı növ yoxlama üsuluna aiddir?

A) Seçmə

B) Faktiki

C) Sənədsiz

D) Arfimetrik

E) Həndəsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

19. Xarici audit hansı sənəd əsasında müəssisədə fəaliyyət göstərir?

A) Akt

B)  Müqavilə

C)  Protokol

D)  Ərizə

E)  Stenoqram

Testin çətinlik dərəcəsi: asan

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

20. Təsdiq olunmuş qaydalara əsasən xüsusi razılıq (lisenziya) almaq üçün iddiaçının Auditorlar Palatasına təqdim etdiyi kompleks sənədlər palataya daxil olduğu gündən etibarən hansı müddət ərzində araşdırılıb lisenziya verilməsi haqqında xüsusi qərar verilməlidir?

A)  5 gün ərzində

B)  10 gün ərzində

C)  25 gün ərzində

D)  15 gün ərzində

E)  7 gün ərzində

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

21. Bir qayda olaraq lisenziyanın dayandırılmasına dair qərar qəbul edildikdə, Auditorlar Palatası bu barədə hansı müddət ərzində lisenziya sahibinə və dövlət vergi xidmət orqanlarına yazılı şəkildə məlumat verir?

A)  5 gün ərzində

B)  10 gün ərzində

C)  15 gün ərzində

D)  20 gün ərzində

E)  25 gün ərzində

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.M.Abbasov. Audit. Bakı, 2007, s.11

22. Audit tapşırığı üzrə tərəfdaş şəxsə nə deyilir?

A) İşçi

B) Partnyor

C) Sifarişçi

D) Fiziki şəxs

E) Hüquqi şəxs

Testin çətinlik dərəcəsi: asan

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.21

23. Tapşırığın həcmindən asılı olaraq audit faylının hansı növləri vardır?

A) Cari və xüsusi audit faylı

B) Cari və ümumi audit faylı

C) Ümumi və xüsusi audit faylı

D) Cari və davamlı audit faylı

E) Fiksal və davamlı audit faylı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.21

24. Təhlili aparılan hesabat dövrü ilə əlaqəli informasiya və audit sübutunu özündə əks etdirən və bu faylın məqsədi audit hesabatındakı rəyləri və hesabları dəstəkləməkdən ibarət olan audit faylı hansıdır?

A) Davamlı audit faylı

B) Ümumi audit faylı

C) Xüsusi audit faylı

D) Fiksal audit faylı

E) Cari audit faylı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.21

25. Hər bir auditdə yenilənmiş zəruri informasiyanı, daxili nəzarət və hesabat sistemlərinin qeydlərini özündə əks etdirən audit faylı hansıdır?

A) Davamlı audit faylı

B) Cari audit faylı

C) Qərarlı audit faylı

D) Təsdiqli audit faylı

E) Genişləndirilmiş audit faylı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.21

26. Bütün audit faylları hansı ardıcıllıqla tərtib olunmalıdır?

A) Maliyyə hesabatları üzrə

B) Əlifba sırası üzrə

C) Təsdiq tarixi üzrə

D) Paylanma tarixi üzrə

E) Qeydiyyat tarixi üzrə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.21

27. Təqdim edilən cari audit faylı üzrə indeks (mündəricat) hansı sənədin əlavəsində qeyd olunur?

A) Protokolun

B) Aktın

C) Təlimatın

D) Əmrin

E) İzahatın

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

28. Audit sənədlərinin forması, məzmunu və həcmi aşağıda sadalanan amillərin hansından asılı deyil?

A) Subyektin ölçüsü və mürəkkəbliyindən

B) İcra ediləcək audit prosedurlarının növündən

C) Müəyyən edilmiş əhəmiyyətli təhrif risklərindən

D) Texnoloji reqlamentin sayından

E) Müəyyən edilmiş istisnaların növü və həcmindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

29. Aşağıdakılardan hansı audit sənədlərinin nümunələrinə daxil deyil?

A) Yoxlama siyahıları

B) İşçi təlimatı

C) Memorandum

D) Audit proqramları

E) Təhlillər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

30. Hər hansı bir iqtisadi subyektin maliyyə fəaliyyətlərin effektivliyi və səmərəliliyi, eləcə də qanunvericiliyə əməl edilməsi ilə əlaqədar vəzifələrinə nail olunması barədə kafi əminliyi təmin etmək üçün iqtisadi subyektin idarə edilməsinə cavabdeh şəxslər və digər işçilər tərəfindən hazırlanan, həyata keçirilən və davam etdirilən prosesə nə deyilir?

A) İctimai nəzarət

B) Xarici nəzarət

C) Daxili nəzarət

D) Fiksal nəzarət

E) Davamlı nəzarət

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

31. Meydana çıxa biləcək potensial təhriflərin müxtəlif növlərini nəzərdən keçirmək üçün auditor tərəfindən istifadə edilən və maliyyə hesabatlarını özündə əks etdirən sənəd forması nədir?

A) Terminlər

B) Təlimatlar

C) Aktlar

D) Müddəalar

E) Risklər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

32. İqtisadi subyektin öz məqsədlərinə nail olmaq və öz strategiyasını həyata keçirmək qabiliyyətinə mənfi təsir göstərə biləcək əhəmiyyətli vəziyyətlər, hərəkət və ya hərəkətsizlikdən, yaxud qeyri-düzgün məqsəd və ya strategiyaların müəyyənləşdirilməsindən yaranan faktorlara nə deyilir?

A) Müddəalar

B) Təlimatlar

C) Auditlər

D) Terminlər

E) Biznes riskləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

33. Auditorun mühakiməsinə görə, müəyyənləşdirilmiş və qiymətləndirilmiş elə riskdir ki, xüsusi audit baxışı tələb edir. Bu hansı risk növüdür?

A) Əhəmiyyətli

B) Əhəmiyyətsiz

C) Daxili

D) Xarici

E) Dövrü

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

34. Əhəmiyyətli təhrifləri aşkara çıxarmaq üçün müddəalar səviyyəsində hazırlanan audit proseduruna nə deyilir?

A) Mütəhərrik prosedur

B) Mahiyyəti üzrə prosedur

C) Davamsız prosedur

D) Əhəmiyyətli prosedur

E) Dövrü prosedur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

35. Aşağıdakılardan hansı audit olunan dövr üçün sövdələşmə və hadisələrin kateqoriyalarına dair müddəalardan biri deyil?

A) Tamlıq

B) Baş vermə

C) Sertifikatlaşdırma

D) Dəqiqlik

E) Sona çatdırılma

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

36. Audit yoxlaması zamanı sənədləşdirilməsi tələb edilən bütün aktiv, passiv və səhm maraqlarının sənədləşdirilmiş olmasına nə deyilir?

A) Determinlik

B) Mövcudluq

C) Risksizlik

D) Dəqiqlik

E) Tamlıq

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

37. Aşağıdakılardan hansı daxili nəzarət komponentlərindən biri deyil?

A) Nəzarət mühiti

B) Sosial yanaşma

C) Nəzarət fəaliyyəti

D) Riskin qiymətləndirilməsi

E) Nəzarət növlərinin monitorinqi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

38. Tətbiqi nəzarət vasitələri hansı başlıqlar altında qruplaşdırıla bilər? Tam doğru cavabı seçin.

A) Tamlıq, aktivliyə və mühafizəyə nəzarət

B) Aktivlik, dəqiqlik və mühafizəyə nəzarət

C) Tamlıq, dəqiqlik və mühafizəyə nəzarət

D) Tamlıq, dəqiqlik və fiksallığa nəzarət

E) Tamlıq, dövrülüyə və mühafizəyə nəzarət

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

39. Auditor iqtisadi subyektin hansı məsələlər üzrə müvafiq prosesinin mövcud olub-olmadığını öyrənməməlidir?

A) Maliyyə hesabatverməsi məqsədləri üçün münasib olan biznes risklərinin müəyyənləşdirilməsi

B) Risklərin əhəmiyyətliliyinin qiymətləndirilməsi

C) Onların baş verməsi ehtimalının qiymətləndirilməsi

D) Riskləri aradan qaldırmaq üçün tədbirlərin müəyyənləşdirilməsi

E)  Fiziki şəxsin şəxsi keyfiyyətləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

40. Qərar qəbul edən zaman auditor hansı faktorları nəzərə almır?

A)  Aralıq hesabatlarını

B)  Əsas nəzarət vasitələrini

C)  Tələb edilən əminlik dərəcəsini

D)  Nəzarət vasitələrinin nə dərəcədə asan şəkildə test edilə bilməsini

E)  Xərclərin səmərəliliyi və işçilərə qoyulan tələbləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

41. Hansı başlıq audit zamanı nəzarət testlərinin başlıqlar altında qruplaşdırıla bilməyən başlığıdır?

A)  Müşahidə vasitəsilə testlər

B)  Sosial əhəmiyyətli testlər

C)  Sorğu vasitəsilə testlər

D)  Sənədli sübutların yoxlanılmasını ehtiva edən testlər

E)  Təkrar yerinə yetirmə vasitəsilə testlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

42. Saxtakarlıq etmək imkanı yaradan və ya saxtakarlıq etməyə sövq edən amil və təzyiq göstəricisinə nə deyilir?

A) Orta risk faktoru

B) Təyinatlı risk faktorları

C) Saxtakarlıq risk faktorları

D) Dövrü risk faktoru

E) Müşahidə edilən risk faktoru

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

43. Xidmət təşkilatının xahişi ilə xidmət təşkilatının nəzarət vasitələrinə dair əminlik hesabatı təmin edən auditor hansıdır?

A) Maliyyə auditoru

B) Sosial auditor

C) Hüquqi auditor

D) Xidməti auditor

E) Fiziki auditor

Testin çətinlik dərəcəsi: asan

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

44. İstifadəçi iqtisadi subyektləri xidmət auditorunun hesabatı ilə əhatə edilən xidmətlərlə təmin etmək üçün xidmət təşkilatının hazırladığı, həyata keçirdiyi və davam etdirdiyi siyasət və prosedurlara nə deyilir?

A) Daxili yoxlama sistemi

B) Ümumi yoxlama sistemi

C) Xarici yoxlama sistemi

D) Sub-xidmət sistemi

E) Xidmət təşkilatının sistemi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

45. İstifadəçi iqtisadi subyektin maliyyə hesabatlarını audit edən və onlara dair hesabat verən auditor hansı auditordur?

A) İstifadəçinin auditoru

B) Xidməti auditor

C) Maliyyə auditoru

D) İqtisadi auditor

E) Daxili auditor

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

46. Audit sübutunu hansı amillərdən ibarət xüsusiyyətlərinə əsasən dəyərləndirmək lazımdır?

A) Yetərlilik, uyğunsuzluq

B) Yetərlilik, uyğunluluq

C) Yetərsizlik, uyğunluluq

D) Yetərlilik, fiksallıq

E) Dövrülük, uyğunluluq

Testin çətinlik dərəcəsi: asan

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

47. Maliyyə və qeyri-maliyyə məlumatları arasındakı münbit münasibətlərin tədqiqi yolu ilə hazırlanmış maliyyə məlumatının dəyərləndirilməsindən ibarət olan amilə nə deyilir?

A) Maliyyə prosedurları

B) Riyazi yoxlamalar

C) Analitik prosedurlar

D) Uyğunsuzluq prosedurları

E) İqtisadi prosedurlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: İ.Bayramov, V.Rəhimov. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimatlar. Bakı, 2015, s.26

48. Mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaratdığı hüquqi şəxs, onun və xarici hüquqi şəxsin filialına (nümayəndəliyinə) nə deyilir?

A) Təşkilat

B) Agentlik

C) Nümayəndəlik

D) Müəssisə

E) Orqan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

49. İşəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxsə nə deyilir?

A) İstehlakçı

B) Sifarişçi

C) Nümayəndə

D) Hüquqi şəxs

E) İşçi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

50. İşəgötürənin, əmək kollektivinin və ya həmkarlar ittifaqı təşkilatının arasında yazılı formada bağlanan əmək, sosial-iqtisadi, məişət və digər münasibətləri tənzimləyən müqaviləyə nə deyilir?

A) Fərdi müqavilə

B) Sosial müqavilə

C) Xüsusi müqavilə

D) Kollektiv müqavilə

E) Elmi müqavilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

51. İşçinin haqqı ödənilməklə vəzifəsi (peşəsi) üzrə əmək müqaviləsi ilə müəyyən edilmiş işləri (xidmətləri) yerinə yetirdiyi yerə nə deyilir?

A) İqtisadi zona

B) Toplantı yeri

C) İctimai yer

D) Sosial sfera

E) İş yeri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

52. Əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə (peşə) üzrə işçinin yerinə yetirməli olduğu işlərin (xidmətlərin) məcmusuna nə deyilir?

A) Əmək funksiyası

B) Əmək kateqoriyası

C) Əmək kollektivi

D) Əmək müqaviləsi

E) Əmək fondu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

53. Kollektiv və fərdi əmək mübahisəsini həll etmək məqsədi ilə işçilərin (işçinin) müvəqqəti olaraq öz əmək funksiyasının icrasından tam və ya qismən könüllü imtina etməsinə nə deyilir?

A) İclas

B) Tətil

C) Müşavirə

D) Mitinq

E) Piket

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

54. Əmək məcəlləsi kimlərə şamil edilmir?

A) Hərbi qulluqçulara

B) Millət vəkillərinə

C) Məhkəmə hakimlərinə

D) Podrat müqavilələr üzrə işləri yerinə yetirən şəxslərə

E) Həkimlərə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

55. Hansı bənd əmək müqaviləsi üzrə işçinin əsas vəzifələrinə aid deyil?

A) İşəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada gizli saxlamamaq

B) Əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək

C) Əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək

D) Əməyin təhlükəsizliyi normalarına əməl etmək

E) Əmək qanunvericiliyinin tələblərinə əməl etmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

56. Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi hansı hədd daxilindədir?

A) 55 yaşa kimi

B) 65 yaşa kimi

C) 62 yaşa kimi

D) 61 yaşa kimi

E) 66 yaşa kimi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

57. Müəssisənin işçilərinin sayı hansı hədd daxilində olduqda, çalışma müddəti uzadılmış işçilərin sayı iki ştat vahidinə qədər yuvarlaqlaşdırılır?

A) 500 nəfərdən az olduqda

B) 200 nəfərdən az olduqda

C) 100 nəfərdən az olduqda

D) 400 nəfərdən az olduqda

E) 150 nəfərdən az olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

58. Yaşı hansı hədd daxilində olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir?

A) Yaşı 25-dən az olan

B) Yaşı 21-dən az olan

C) Yaşı 19-dən az olan

D) Yaşı 18-dən az olan

E) Yaşı 28-dən az olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

59. Hansı halda məcburi əməyə yol verilir?

A) Gündüz vaxtları

B) İş vaxtına düşən saatlarda

C) Həmkarların qərarı ilə

D) Müəssisə rəhbərinin yazılı əmri əsasında

E) Hərbi vəziyyətdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

60. Aşağıdakılardan hansı kollektiv müqavilənin məzmununa daxil deyil?

A) Məşğulluq, əlavə təhsil, işçilərin sərbəstləşdirilməsi şərtləri

B) Müəssisənin istehsal və iqtisadi fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi

C) Əməyin mühafizəsinin yaxşılaşdırılması üçün əlavə təminatların müəyyən edilməsi

D) Qadınların, 16 yaşına çatmamış işçilərin əmək şəraitinin yaxşılaşdırılması

E) Əmək vəzifələrini yerinə yetirməklə əlaqədar işçilərə dəyən ziyanın ödənilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

61. Kollektiv müqavilə hansı müddət üçün bağlana bilər?

A) Bir ildən on beş ilədək müddətə

B) Bir ildən on ilədək müddətə

C) Bir ildən altı ilədək müddətə

D) Bir ildən beş ilədək müddətə

E) Bir ildən üç ilədək müddətə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

62. Hansı saziş respublikada sosial-iqtisadi siyasətin aparılmasının razılaşdırılmış ümumi prinsiplərini müəyyən edir?

A) Baş kollektiv saziş

B) Sahə kollektiv saziş

C) Ərazi kollektiv saziş

D) Ümumi kollektiv saziş

E) Regional kollektiv saziş

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

63. Kollektiv sazişin hansı növləri vardır?

A) Baş, sahə və region

B) Baş, sahə və ərazi

C) Baş, sahə və aralıq

D) Baş, sahə və kollektiv

E) Baş, sahə və dövrü

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

64. Baş kollektiv saziş-müvafiq icra hakimiyyəti orqanı ilə hansı təşkilat arasında bağlanır?

A) İdarə və müəssisə rəhbəri arasında

B) Ümumi ölkə həmkarlar ittifaqı arasında

C) Sosial institutlar arasında

D) Fəhlə birliyi arasında

E) İctimai təşkilat arasında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

65. Hansı yaşa malik olan hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər? Tam doğru cavabı seçin.

A) 13 yaşa çatmış

B) 14 yaşa çatmış

C) 15 yaşa çatmış

D) 12 yaşa çatmış

E) 11 yaşa çatmış

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

66. Əmək müqaviləsində hansı şərtlər və məlumatlar göstərilməməlidir?

A) Əmək müqaviləsinin müddəti

B) İşçinin əmək funksiyası

C) İşçinin iş yeri, vəzifəsi

D) İşçinin şəxsi məlumatları

E) Əmək müqaviləsinin bağlandığı gün

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

67. Müddətli əmək müqaviləsi fasiləsiz olaraq hansı müddətdən artıq davam edərsə, müddətsiz əmək müqaviləsi hesab edilir?

A) 3 ildən artıq müddətə

B) 4 ildən artıq müddətə

C) 2 ildən artıq müddətə

D) 1 ildən artıq müddətə

E) 5 ildən artıq müddətə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

68. Hansı yaş aralığında olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlarından) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır? Tam doğru cavabı seçin.

A) 15-18 yaş arasında olan şəxslər

B) 14-16 yaş arasında olan şəxslər

C) 15-19 yaş arasında olan şəxslər

D) 12-20 yaş arasında olan şəxslər

E) 13-18 yaş arasında olan şəxslər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

69. Əmək müqaviləsi işçinin peşəkarlıq səviyyəsini, müvafiq əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədi ilə sınaq müddəti müəyyən edilməklə bağlanıla bilər. Sınaq hansı müddətə təyin edilir?

A) 4 aydan artıq olmamaq şərti ilə

B) 3 aydan artıq olmamaq şərti ilə

C) 5 aydan artıq olmamaq şərti ilə

D) 6 aydan artıq olmamaq şərti ilə

E) 7 aydan artıq olmamaq şərti ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

70. Hansı bənd sınaq müddəti müəyyən edilməyən hallara aid deyil?

A) Müsabiqə yolu ilə müvafiq vəzifəni tutanlara

B) Yaşı 18-dən az olan şəxslərə

C) İki ay müddətinədək əmək müqaviləsi bağlanılan şəxslərə

D) Altı ay müddətinədək əmək müqaviləsi bağlanılan şəxslərə

E) Hamilə olan qadınlara

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

71. Sınaq müddəti qurtaranadək tərəflərdən biri digərinə hansı müddət ərzində yazılı xəbərdarlıq etməklə əmək müqaviləsini poza bilər?

A) Bir gün əvvəl

B) On üç gün əvvəl

C) Üç həftə əvvəl

D) Üç ay əvvəl

E) Üç gün əvvəl

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

72. Boş vəzifə üzrə işçiyə hansı müddət ərzində əmək funksiyasının yerinə yetirilməsi həvalə edilə bilər?

A) Üç aydan çox olmayan müddətə

B) Dörd aydan çox olmayan müddətə

C) Beş aydan çox olmayan müddətə

D) Altı aydan çox olmayan müddətə

E) Bir ildən çox olmayan müddətə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

73. Hansı müddət ərzində işləyən işçilər attestasiyadan keçirilə bilər? Tam doğru cavabı seçin.

A) İki aydan çox işləyənlər

B) Bir ildən çox işləyənlər

C) Altı aydan çox işləyənlər

D) Üç aydan çox işləyənlər

E) Beş aydan çox işləyənlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

74. Hər bir işçi hansı müddətdə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilə bilər?

A) 1 ildə bir dəfə

B) 2 ildə bir dəfə

C) 3 ildə bir dəfə

D) 6 ayda bir dəfə

E) Rübdə bir dəfə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

75. Attestasiya komissiyası azı neçə nəfərdən ibarət olmaqla bütün hallarda onun say tərkibi təkrəqəmli olmalıdır? Tam doğru cavabı seçin.

A) Azı 7 nəfərdən ibarət olmaqla

B) Azı 9 nəfərdən ibarət olmaqla

C) Azı 3 nəfərdən ibarət olmaqla

D) Azı 5 nəfərdən ibarət olmaqla

E) Azı 1 nəfərdən ibarət olmaqla

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

76. Hansı yaşlı işçilər attestasiya olunmurlar?

A) Yaşı 55 olanlar

B) Yaşı 21 olanlar

C) Yaşı 20 olanlar

D) Yaşı 19 olanlar

E) Yaşı 18 olanlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

77. İşəgötürən ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda hansı şəxslərin işdə saxlanılmasına üstünlük vermir?

A) Öhdəsində iki və daha çox 19 yaşınadək uşağı olanların

B)  Qaçqın statusu olan şəxslərin

C)  Müharibə iştirakçılarının

D)  Şəhid ailəsi üzvlərinin

E)  Öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanların

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

78. İşəgötürən hansı müddətdən artıq işləyən bütün işçilərin əmək kitabçasında onların işə qəbul edilməsi, başqa daimi işə keçirilməsi, əmək müqaviləsinə xitam verilməsi barədə müvafiq qeydləri yazmalıdır?

A)  1 gündən artıq işləyən

B)  2 gündən artıq işləyən

C)  3 gündən artıq işləyən

D)  4 gündən artıq işləyən

E)  5 gündən artıq işləyən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

79. Gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti neçə saatdan artıq müəyyən edilə bilməz?

A)  40 saatdan artıq müəyyən edilə bilməz

B)  20 saatdan artıq müəyyən edilə bilməz

C)  50 saatdan artıq müəyyən edilə bilməz

D)  64 saatdan artıq müəyyən edilə bilməz

E)  92 saatdan artıq müəyyən edilə bilməz

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

80. Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşınadək işçilər üçün neçə saatdan artıq ola bilməz?

A) 26 saatdan artıq ola bilməz

B) 32 saatdan artıq ola bilməz

C) 18 saatdan artıq ola bilməz

D) 14 saatdan artıq ola bilməz

E) 24 saatdan artıq ola bilməz

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

81. İşçinin əmək fəaliyyəti haqqında sənəddə hansı parametrlər əks olunur?

A) İşə girdiyi gün, ay, il, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası

B) İşə girdiyi saat, ay, il, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası

C) İşə girdiyi gün, ay, rüb, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası

D) İşə girdiyi gün, rüb, il, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası

E) İşə girdiyi gün, ay, fəsil, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

82. Əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatlarda, peşə və vəzifələrdə çalışan işçilərə həftədə hansı müddətdən artıq olmayan qısaldılmış iş vaxtı müəyyən edilir?

A) 26 saatdan çox olmayan

B) 36 saatdan çox olmayan

C) 16 saatdan çox olmayan

D) 46 saatdan çox olmayan

E) 56 saatdan çox olmayan

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

83. İşçilərin ümumi sayı hansı həddə qədər olan sənaye müəssisələrində müəyyən edilmiş əmək, sosial və iqtisadi hüquqlarını məhdudlaşdırmamaq şərti ilə işəgötürən fərqli olan iş vaxtının rejimi qaydalarını müəyyən edə bilər?

A) 100 nəfərədək olan müəssisələrdə

B) 150 nəfərədək olan müəssisələrdə

C) 50 nəfərədək olan müəssisələrdə

D) 250 nəfərədək olan müəssisələrdə

E) 350 nəfərədək olan müəssisələrdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

84. Sutkanın hansı vaxtı (iş yerləri üçün) gecə vaxtı sayılır? Tam doğru cavabı seçin.

A) Saat 20-dən səhər saat 6-dək olan müddət

B) Saat 18-dən səhər saat 6-dək olan müddət

C) Saat 22-dən səhər saat 8-dək olan müddət

D) Saat 22-dən səhər saat 6-dək olan müddət

E) Saat 00-dən səhər saat 7-dək olan müddət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

85. Əmək şəraiti ağır və zərərli olan sahələrdə bütün iş günü (növbəsi) ərzində iş vaxtından artıq işlərin müddəti hansı hədd daxilində olmalıdır? Tam doğru cavabı seçin.

A) 3,5 saatdan çox ola bilməz

B) 4 saatdan çox ola bilməz

C) 3 saatdan çox ola bilməz

D) 1 saatdan çox ola bilməz

E) 2 saatdan çox ola bilməz

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

86. İşçinin bir iş günü ilə növbəti iş günü arasındakı gündəlik istirahət vaxtı hansı zaman kəsiyində olmalıdır? Tam doğru cavabı seçin.

A) Azı 12 saat olmalıdır

B) Azı 14 saat olmalıdır

C) Azı 16 saat olmalıdır

D) Azı 10 saat olmalıdır

E) Azı 8 saat olmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

87. İşçilərə ödənişli əsas məzuniyyət hansı təqvim günündən az olmayaraq verilməlidir?

A) 19 təqvim günündən az olmayaraq

B) 21 təqvim günündən az olmayaraq

C) 20 təqvim günündən az olmayaraq

D) 15 təqvim günündən az olmayaraq

E) 18 təqvim günündən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

88. Əmək stajından asılı olaraq işçilərə beş ildən on ilədək əmək stajı olduqda neçə təqvim günü əlavə məzuniyyət günü verilir?

A) 1 təqvim günü

B) 3 təqvim günü

C) 2 təqvim günü

D) 4 təqvim günü

E) 5 təqvim günü

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

89. Əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara neçə təqvim günü əlavə məzuniyyət verilir?

A) 5 təqvim günü

B) 4 təqvim günü

C) 3 təqvim günü

D) 2 təqvim günü

E) 1 təqvim günü

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

90. İşçinin birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı andan etibarən hansı müddətdən sonra verilir?

A) 4 ay işlədikdən sonra

B) 18 ay işlədikdən sonra

C) 1 il işlədikdən sonra

D) 10 ay işlədikdən sonra

E) 6 ay işlədikdən sonra

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

91. Əməyinin ödənilmə dərəcəsi aşağı salınmış işçinin əvvəlki dərəcəsi hansı müddətdən sonra müsbət nəticələr əldə edildiyi halda bərpa edilə bilər? Tam doğru cavabı seçin.

A) Ən azı 3 aydan sonra

B) Ən azı 2 aydan sonra

C) Ən azı 1 aydan sonra

D) Ən azı 5 aydan sonra

E) Ən azı 6 aydan sonra

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

92. Hansı yaşa malik qızların bütün iş günü ərzində müntəzəm olaraq yük qaldırma və daşınma işlərinə cəlb edilməsi qadağandır? Tam doğru cavabı seçin.

A) Yaşı 17-dən az olan

B) Yaşı 16-dan az olan

C) Yaşı 18-dən az olan

D) Yaşı 19-dan az olan

E) Yaşı 20-dən az olan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

93. İş yerlərində sutkanın hansı vaxtı yaşı 18-dən az olan işçilər üçün gecə vaxtı hesab edilir?

A) Axşam saat 21-dən səhər saat 6-dək olan müddət

B) Axşam saat 22-dən səhər saat 10-dək olan müddət

C)  Axşam saat 20-dən səhər saat 7-dək olan müddət

D)  Axşam saat 18-dən səhər saat 9-dək olan müddət

E)  Axşam saat 00-dən səhər saat 8-dək olan müddət

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının əmək məcəlləsi. www.e-qanun.az/code/7 04.02.2019

94. Əmək qanunvericiliyinə görə tətilin başlanmasına hansı müddət qalmış əmək kollektivi və ya həmkarlar ittifaqı orqanı işəgötürənə tətil keçiriləcəyi barədə yazılı məlumat verməlidir?

A)  Ən geci 9 iş günü qalmış

B)  Ən geci 5 iş günü qalmış

C)  Ən geci 6 iş günü qalmış

